F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Poeziyamızın Sərbəst və Müasir Ruhu

# RƏSUL RZA - 115



*Veblioqrafiya*

**Bakı - 2025**

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025.**

**Tərtib etdi:** **Məlumat-biblioqrafiya şöbəsi**

**Əkbərova Aysel**

**Ünvan**: Bakı şəhəri, S.Vurğun küçəsi 88

**Əlaqə:** (+99412) 597-08-79, (+99412) 597-09-86

info@clb.az

ushaqkitabxanasi@gmail.com

childlibbaku@yahoo.com

## Giriş

Azərbaycan ədəbiyyatının görkəmli şairi, dramaturqu Rəsul Rza öz dəsti xətti ilə Azərbaycan poeziyasına yeni nəfəs gətirmişdir. Onun yaradıcılığı tanınmış ədəbiyyatşünasların, tənqidçilərin maraq dairəsinə çevrilmiş, tədqiqatçı alimlər tərəfindən araşdırılaraq geniş şəkildə təhlil edilmişdir. Xalq şairi Rəsul Rza böyük istedadı, zəngin və hərtərəfli bədii təfəkkürü ilə ölümsüz əsərlər yaratmış ustad sənətkardır.

Xalq şairi Rəsul Rza 19 may 1910-cu ildə Göyçayda maarifpərvər ailədə doğulmuşdur. 1927-1937-ci illərdə Zaqafqaziya Kommunist Universitetində, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda, Moskva Millətlər İnstitutunda və Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsil alıb.

Rəsul Rza 1931-ci ildə Azərbaycan ədəbi gəncliyinin toplaşdığı əsas mərkəzlərdən olan "Maarif evi"ndə şairə Nigar Rəfibəyli ilə tanış olub. 1937-ci il fevralın 11-də Rəsul Rza və Nigar Rəfibəyli evlənirlər. Onların oğlu – Anar, 1938-ci il martın 18-də anadan olmuş, yazıçı, dramaturq, ssenarist və kinorejissoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü və sədri olub.

Görkəmli şair yaradıcılığa 1927-ci ildə Tiflisdə "Qığılcım" almanaxında dərc etdirdiyi ilk şeiri - "Bu gün" şeiri ilə başlamışdır. "Gənc işçi" redaksiyasında çalışdığı vaxtda isə bu qəzetin səhifələrində "Avropanın ölüm çağı", "Arş", "Bir avqusta", "Qara yelin xəbəri" və s. şeirləri dərc olunur. Rəsul Rza ilk şeirləri ilə mətbuatda çıxış etdiyi zamandan bəri onun şeirlərindəki ədəbi-bədii yeniliklər, yeni üslub və ədəbiyyata gətirdiyi modernist ruh hər kəsin diqqətini çəkmişdi.

1941-ci ilin axırlarında şair hərbi müxbir kimi Krıma gedir və onun burada yazdığı ilk əsər "Bəxtiyar" şeiri idi. "Vətən", "İntiqam! İntiqam…" adlı şeir kitabları, "Ölməz qəhrəmanlar", "Qəzəb və məhəbbət", hekayə və oçerk topluları, "Vəfa" pyesi də həmin dövrdə işıq üzü görüb.

Rəsul Rzanın 1960-cı illərdə yazdığı "Rənglər" silsiləsinin ayrıca yeri vardır. Silsilə ilk dəfə 1962-ci ildə "Azərbaycan" jurnalında (№ 11) dərc olunmuşdur. Silsilənin bu nəşri 27 şeirdən ibarət idi və bu həcmdə şairin "Duyğular…düşüncələr" kitabına (1964) daxil edilmişdir. Daha sonra şair "Qırmızının ümid çaları", "Firuzəyi", "Qırmızının inam çaları", "Mavinin təsəlli çaları", "Sürməyi", "Saman sarısı" poetik mətnlərini yazdı və bu yeni şeirlər "Dözüm" kitabına (1965) daxil edildi. Bütövlükdə silsilə 33 şeirdən ibarətdir.

Rəsul Rzanın lirik-epik səpkidə yazılmış "Qızılgül olmayaydı" poeması Azərbaycan ədəbiyyatında repressiya qurbanları mövzusunda yazılmış ən dəyərli əsərlərdən biri sayılır. Poemanın mövzusu Müşfiqin həyatı və taleyindən götürülüb.

Yaradıcılıqla yanaşı ictimai-siyasi fəaliyyətlə də məşğul olan Rəsul Rza bir çox dövlət vəzifələrində çalışıb. 1939-cu ildə Azərbaycan Yazıçıları İttifaqının sədri, 1945-

1948-ci illərdə Azərbaycan Kinematoqrafiya naziri, 1966-1975-ci illərdə Azərbaycan Ensiklopediyasının baş redaktoru, 1960-1981-ci illərdə Asiya və Afrika Ölkələri ilə Respublika Həmrəylik Komitəsinin sədri olub. 1964-cü ildə SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilib.

Rəsul Rza Sosialist Əməyi Qəhrəmanı (1980), "Stalin" mükafatı (3-cü dərəcə, 1951), "Azərbaycan SSRİ xalq şairi" fəxri adı (1960), "Azərbaycan SSRİ əməkdar incəsənət xadimi" fəxri adı (1943), "Lenin" ordeni (1946, 1970, 1980) və "Şərəf nişanı" ordeni (1938) ilə təltif edilmişdir.

Görkəmli şair Rəsul Rza 1 aprel 1981-ci ildə Bakı şəhərində ürək çatışmazlığından vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

Unudulmaz şair Rəsul Rzanın 115 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası şair haqqında XX əsrin sonlarından günümüzədək fondunda mövcud olan çap əsərlərinin tammətnli təsviri, eləcə də şair haqqında görkəmli şəxsiyyətlərin fikirləri, həmçinin videomateriallardan ibarət videoqalereyanın da yer aldığı geniş həcmli veblioqrafiya hazırlayaraq oxucuların istifadəsinə təqdim edir.

# Rəsul Rzanın ev-muzeyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, Dövlət Mükafatı laureatı Rəsul Rza milli poetik fikir salnaməsinə yeni səhifələr yazan novator sənətkar kimi böyük şöhrət qazanmış, ana dilinin zənginliklərindən uğurla faydalanaraq, yarım əsrə yaxın dövr ərzində daim yüksək bədii dəyəri ilə seçilən çox sayda əsərlər yaratmış, eyni zamanda ölkənin ictimai və mədəni həyatında yaxından iştirak edərək, genişmiqyaslı dolğun fəaliyyəti ilə tanınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Xalq şairi Rəsul Rzanın Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətlərini nəzərə alaraq qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Bakı şəhəri, Səbail rayonu, Rəsul Rza küçəsi 21/26, mənzil 18 ünvanında Rəsul Rzanın ev-muzeyinin yaradılması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsini təmin etsin.

2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 23 iyun 2022-ci il*

## Görkəmli şəxsiyyətlər Rəsul Rza haqqında

Azərbaycan poeziyasının yeni forma və üslub keyfiyyətləri, məzmun rəngarəngliyi, orijinal obrazlarla zənginləşdirmiş novator şair Rəsul Rzanın yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Rəsul Rza analitik bədii, idrak, mövzuya dərindən nüfuz etmək bacarığı, həyat hadisələrinə fəlsəfi münasibətlə seçilən poeziyası ilə yanaşı, ədəbi tənqid və publisistika, dünya poeziyasının ən gözəl nümunələrinin tərcüməsi sahələrində də zəngin irs qoymuşdur.

**Heydər Əliyev**
*Ümummilli lider*

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, Dövlət Mükafatı laureatı Rəsul Rza milli poetik fikir salnaməsinə yeni səhifələr yazan novator sənətkar kimi böyük şöhrət qazanmış, ana dilinin zənginliklərindən uğurla faydalanaraq, yarım əsrə yaxın dövr ərzində daim yüksək bədii dəyəri ilə seçilən çox sayda əsərlər yaratmış, eyni zamanda ölkənin ictimai və mədəni həyatında yaxından iştirak edərək, genişmiqyaslı dolğun fəaliyyəti ilə tanınmışdır.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Rəsul Rza romantik bir qəlblə yazdığı "İntiqam" şeiri ilə insanları, yerləri və göyləri, dağları və daşları belə intiqama – faşist cəlladlarının başına od yağdırmağa çağırdı.

**Səməd Vurğun**
*Xalq şairi*

Rəsul Rza böyük humanistdir, onun humanizminin əsasları, qaynaqları şairin xalqla dərin, qırılmaz əlaqəsindədir. Xalqın ağrısı Rəsulun ağrısıdır, xalqın sevinci Rəsulun sevincidir.

**Süleyman Rüstəm**
*şair, dramaturq*

Onun şeirlərini bir daha qüvvətli göstərən, ümumiyyətlə, Rzanın sağlam siyasi görüşə malik olmasıdır.

**Mehdi Hüseyn**
*yazıçı, dramaturq*

Rəsul Rza daha ziyada lirik, xitabətçi və inqilabi romantizmə malikdir. Onun şeirlərində real hadisələrdən çox real həyəcanlar, canlı xarakter və obrazlar təsvirindən çox canlı təşbeh və məcazlar, canlı, həyati hissiyyat və idrak məfhumları vardır.

**Əli Nazim**
*ədəbiyyatşünas, tənqidçi*

Mən Rəsul Rzanı axtaran, hey axtaran, bir çox sərvəti dürüst tapan, bəzən də tapa bilməyən, ancaq tapa bilmədikdə də həvəsdən düşməyən, "yoruldum" deməyən bir kəşfiyyatçı kimi, bir şair kimi təsəvvürümə gətirirəm…

**Süleyman Rəhimov**
*yazıçı*

Rəsul Rza Cənubi Azərbaycandakı böyük və unudulmaz xalq hərəkatına həsr etdiyi şeirlərində xalqımızın əsrlik həsrətini, azadlıq uğrunda mübarizəsini tərənnüm etmişdir.

**Mirzə İbrahimov**
*yazıçı, dramaturq*

O, əks elədiklərini sənətkar təxəyyülündən, sənət süzgəcindən keçirir, özünə lazım olan şəklə salandan sonra ona şeir donu geydirir.

**Əli Vəliyev**
*yazıçı*

Mən Rəsul Rzanın şeirlərini oxuduqdan sonra özümdə qəribə rahatlıq duyuram. Bu şeirlər adamı düşündürür, mənəvi cəhətdən təmizləyir, yüksəldir.

**Murtuza Nağıyev**
*professor*

Əgər şeirimizi göylərə ucalan yaşıl bir çinara bənzətsək, Rəsul Rza onun gözəl, canlı, sağlam budaqlarından biridir.

**Məmməd Rahim**
*şair, dramaturq*

Rəsul Rza həyata, həyati hadisələrə şeirin gözü ilə baxmağı bacaran, ən adi hadisələri böyük şeiriyyətlə təsvir etməyə qadir olan şairdir.

**Sabit Rəhman**
*Azərbaycanın əməkdar incəsənət xadimi, yazıçı*

Rəsul Rza isə dünyaya dedikləri üzərində deyilməyə macal tapmadıqlarının da kölgələri dolaşır, çünki hər bir həqiqi sənətkarların bədii sözü dünənli, bugünlü, sabahlıdır, dərinində millidir, rəngində şəxsidir, ucalığında ümumbəşəridir və həqiqi poeziya həmişə hərəkətdədir.

**Ənvər Məmmədxanlı**
*yazıçı, dramaturq*

Onun poeziyasında qılınc kimi kəskin həqiqətlər vardır.

**İlyas Əfəndiyev**
*nasir, dramaturq*

Onun şəxsiyyətindəki xəlqilik köhnəliyə patriarxal tərəfdarlıq dərəcəsinə qədər çatır, lakin bununla belə, o, ənənələrə qarşı ən cəsarətli davranan şairdir.

**Cəfər Cəfərov**
*Tarix elmlər doktoru, professor*

Rəsul Rza poeziyası, sözün əsl mənasında, yeni, çoxçalarlı, musiqi dili ilə desək, polifonik poeziyadır.

**Qara Qarayev**
*bəstəkar*

Rəsul Rza filosofdur. "İki buruğun söhbəti" şeiri ilk baxışda olduqca sadə və adi görünür. Ancaq onlar haqqında, həyat, nəsillər, gələcək haqqında və onların cavabdehliyi barədə nə qədər gözəl deyilmişdir.

Rəsul Rza Azərbaycan poeziyasının novatorlarından biri, özünəməxsus orijinal şair, xalq şeirinin, klassik poeziyanın böyük pərəstişkarıdır.

Rəsul Rza müasir Azərbaycan şeirinə bugünkü şəhərin danışıq dilini, bu dilin harmoniyasını gətirib. Danışıq dili deyəndə mən Bakı və Kirovabad şivəsini nəzərdə tutmuram. Mən azərbaycanlı vətəndaşın dilini nəzərdə tuturam. Bu sahədə Rəsul Rza Sabir ənənələrini davam etdirir. Məgər öz dövrünün poeziyasına Azərbaycan şəhərlisinin dilini gətirmək Sabirin xidməti deyilmi?

**Nazim Hikmət**
*türk şair, yazıçı*

Onun poeziyasının qəhrəmanı müasir dünyanın həyəcanları, qayğı və ehtiyacları ilə yaşayır. Məhz buna görə o, daim narahatdır, qəlbi daim çırpınır…

**Səttar Bəhlulzadə**
*rəssam*

O, xarakteri etibarilə heç vaxt dəyişməzdi.

**Mikayıl Abdullayev**
*rəssam*

Rəsul Rzanın şeirləri bəzən son dərəcə incə, həssas, zərif, bəzən də amansız dərəcədə sərtdir. O, yalnız həyat hadisələrini deyil, rənglərin, səslərin, işığın, suyun, dalğaların ifadə etdiyi sevinci, kədəri duymağı və onları duyğular, düşüncələr, xəyallar və xatirələrlə bağlamağa çalışır.

**Əhməd Cəmil**
*şair*

O, yalnız doğma dilində yeni bədii forma yaratdığına görə deyil, həm də yalnız özünəməxsus şəkildə düşündüyü və duyduğuna, dünyanı və hadisələri dərk etdiyinə görə novatordur.

**Arseni Tarkovski**
*rus şairi*

Rəsul Rza və Maqsud Şeyxzadə təkcə Azərbaycan və özbək şeirinin xəritəsində deyil, ümumtürk poeziyasının məna və mahiyyətində köklü təzələnmənin baniləri kimi şöhrətlənirlər. Onlar yeni epoxanın yeni söz sənətini yaradanların öncüllərinə çevrildilər. Amma bu misilsiz estetik missiyanı Rəsul Rza Azərbaycanda, Maqsud Şeyxzadə isə Özbəkistan ədəbi mühitində həyata keçirdi.

**Yaşar Qasımbəyli,**
*Filologiya elmlər doktoru*

Zaman göstərir ki, Rəsul Rza poeziyası əbədiyaşar poeziyadır, onun yaradıcılığı gündən-günə gəncləşərək, daima müasir qalır, hər zaman öz yeni oxucularını tapır.

**Fikrət Qoca**
*Xalq şairi*

İlk baxışda Rəsul Rzanın yaradıcılığı bir qitəni başdan-başa öyrənməyə bənzəyir. Ancaq bu qitədə xeyli ayaq dəyməmiş cığırlar var, sehirli çeşmələr var, pusquda duran vulkanlar var. Dilimizin bütün incəliklərini qeyri-adi şəkildə duyan və anlayan, onun ecazkar şirinliyini, əlvanlığını və musiqili koloritini ustalıqla işlədən Rəsul Rza Azərbaycan poeziyasını yeni bədii yüksəkliyə qaldıra bildi. Şairi öz sənətinə dərin idraki münasibət fərqləndirir.

Onun bütün əsərlərinin ana xətti yüksək vətəndaşlıq, həqiqi patriotizmdir. Sənətin mürəkkəb və keşməkeşli yollarında Rəsul Rza mənimçün öz yüksək amalına xidmət etməyin ən gözəl örnəyi olmuş, ən gözəl örnəyidir və ən gözəl örnəyi kimi qalacaq.

**Məmməd Araz**
*Xalq şairi*

Rza yaradıcılığının hər yeni mərhələsində, özündə nəyisə qoruyub saxlayan, nəyisə rədd edən, dialektik sıçrayışlar yolu ilə irəliləyən sənətkar olmuşdur. Rəsul Rza yalnız başqaları ilə deyil, həm də özünü keçmək uğrunda çarpışmalarda kamilləşən sənətkardır. Bəzi şairlərin mahirliyini nümayiş etdirmək üçün bir bəndini, yaxud beytini misal gətirməklə ürəyini soyudursan. Rəsul Rza sənətkarlığından danışanda isə bir, iki beyti, bəndi yox, şeiri, hətta mümkün olsa poeziyanı bütünlüklə misal gətirmək istəyirsən.

**Xəlil Rza Ulutürk**
*Xalq şairi*

Sənətin sonu yoxmuş. Sənət yollarında zirvədən zirvə doğur. Bu yolda addımlayanlar üçün bu günün zirvəsi sabahın pilləsidir. Buna görə də siz heç zaman çatmadığınız zirvəni zirvə bilməmiş, daha böyük üfiqlərə can atmış, durduğunuz zirvədən yaxınlara baxmısınız, çünki siz həmişə böyük amallarla yaşamış, xırda hislərdən uzaq olmuş, "sözün cəng cidalında" saç ağartmış, sənət eşqi ilə yazıb-yaratmışsınız. Mən sizi həmişə belə görmüş, belə tanımışam.

Sənət aləmində siz heç kəsi təkrarlamamış, həmişə öz yolunuzu gedib, öz qəlbinizin köküındə yalnız öz mahnımızı oxumusunuz. Sənətkar üçün bundan böyük üstünlük tanımıram.

**Bəxtiyar Vahabzadə**
*Xalq şairi*

Xalq şairi Xalqımızın çınar vüqarlı yenilməz şairi təkcə özünün bu qüdrəti, bu əzəməti ilə deyil, həm də nəcibliyi və həlimliyi ilə doğma xalqının hərarətli qəlbinə, işıqlı yaddaşına əbədi həkk olunmuşdur. O, həmişəyaşar xalq sənətkarıdır.

**Şahin Cəfərov**
*professor*

Rəsul Rzanın məhsuldar yaradıcılıq yolunu izlədikcə ixtiyarsız düşünürsən ki, istər sağlığında, istərsə də qoyub getdiyi irsi ilə əsl şairlər həmişə xalqın görən gözü, döyünən ürəyi məqamında dururlar.

**Qəzənfər Paşayev**
*Rəsul Rza mükafatı laureatı, ədəbiyyatşünas*

Əziz Rəsul müəllim!

Zəmanəmizdə ən çox hörmət bəslədiyim şairlərdən biri də sizsiniz. İlhamlı təfəkkürünüz, obrazlarınız üçün sizə təşəkkür edirəm.

**Çingiz Aytmatov**
*qırğız yazıçısı*

# Fotoqalereya

***Qeyd*: Burada yerləşdirilən fotoşəkillər aşağıda qeyd olunan linkdən götürülmüşdür. Daha ətraflı məlumat almaq və daha çox fotoşəkillərlə tanış olmaq üçün linkə keçid edə bilərsiniz.**

***http://rasulrza.musigi-dunya.az/xatireler/xt4_3.shtml***



Heydər Əliyev Rəsul Rzaya Sosialist Əməyi Qəhrəmanı ulduzunu təqdim edir, 1980.



Rəsul Rza və Səməd Vurğun. 1940.



Rəsul Rza, Nazim Hikmət, Süleyman Rüstəm.



Rəsul Rza və Mehdi Hüseyn. 1932.



Rəsul Rza və Nigar Rəfibəyli.



Rəsul Rza «Gənc işçi» qəzetinin redaksiyasında. 1932.



Rəsul Rza, Süleyman Rüstəm, Ə. Məmmədxanlı, Əli Nazim.



Rəsul Rza və Anar. Son birgə şəkilləri.

## Videoqalereya

Heyder Əliyev Rəsul Rza haqqında

https://www.youtube.com/watch?v=KzPh84X2sc8

Rəsul Rza haqqında film

https://www.youtube.com/watch?v=bKx13_AVGxg

Eldən soruş (1980) - Rəsul Rza haqqında sənədli film

https://www.youtube.com/watch?v=GzbONT_Gc-8

Rəsul Rza – Yaşıl Atlas – Ömürdən səhifələr (sənədli film)

https://www.youtube.com/watch?v=-0C0YibtWPE

Bu gün xalq şairi Rəsul Rzanın anım günüdür.

https://www.youtube.com/watch?v=YfRkwWBZ948

Alagözlüm | Rəsul Rza | Televiziya filmi

https://www.youtube.com/watch?v=Mc1VykFvCxI

Rəsul Rza

https://www.youtube.com/watch?v=xs2dHFdCiUU

Rəsul Rzanın ev muzeyində nələr var?

https://www.youtube.com/watch?v=9TajEGIUMTQ

Daxmada ailə quran, ölümü həyat yoldaşından axıracan gizlədilən Xalq şairi – Rəsul Rza

https://www.youtube.com/watch?v=3iDWwcPVYYQ

Rəsul Rza öz şeirlərini oxuyur

https://www.youtube.com/watch?v=pE3s_Ldx3jo

## Əsərləri

### *Kiril əlifbası ilə*




Ağaclar : şeirlər. - Bakı : Gənclik, 1977. - 13 s.




Balacaların təbiət ensiklopediyası : şeirlər. - Bakı : Gənclik, 1992. - 40 s.




Bostan və tərəvəz bitkiləri : kiçik yaşlı uşaqlar üçün şeirlər. - Bakı : Gənclik, 1977. - 12 s.




Çöl quşları : şeirlər. - Bakı : Gənclik, 1977. - 15 s.




Ev heyvanları : ensiklopediya. - Bakı : Gənclik, 1977. - 14 s.




Ev quşları : şeirlər. - Bakı : Gənclik, 1977. - 14 s.




Güllər, çiçəklər : ensiklopediya. - Bakı : Gənclik, 1976. - 15 s.




Heyvanların yuxusu. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1956. - 16 s.




İlkin məktəbə getdi : məktəb yaşı çatmamış uşaqlar üçün şeir. - Bakı : Gənclik, 1969. - 13 s.




İntiqam... intiqam. - Bakı : Uşaqgəncnəşr, 1943. - 36 s.




Meyvələr : şeirlər. - Bakı : Gənclik, 1977. - 12 s.




[Qızılgül olmayaydı : poema. - Bakı : Gənclik, 1968. - 66 s.]




[Səkil və Çəkil : kiçik yaşlı uşaqlar üçün. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1955. - 20 s.]




[Si-Au. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1951. - 11 s.]




Si-Au. Təranənin oyuncaqları. Heyvanların yuxusu. Səkil və Çəkil : şeirlər . - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1960. - 56 s.




Tarla və çöl bitkiləri. - Bakı : Gənclik, 1977. - 14 s.




Təranənin oyuncaqları : məktəb yaşa çatmayan uşaqlar üçün. - Bakı : Uşaqgəncnəşr, 1959. - 19 s.

*Latın əlifbası ilə*




Seçilmiş əsərləri : 5 cilddə. C. 1. - Bakı : Öndər, 2005. - 304 s.

Seçilmiş əsərləri : 5 cilddə. C. 2. - Bakı : Öndər, 2005. - 320 s.

Seçilmiş əsərləri : 5 cilddə. C. 3. - Bakı : Öndər, 2005. - 256 s.

Seçilmiş əsərləri : 5 cilddə. C. 4.- Bakı : Öndər, 2005. - 336 s.

Seçilmiş əsərləri : 5 cilddə. C. 5. - Bakı : Öndər, 2005. - 264 s.




Ağaclar. - Təkrar nəşr, 1977-ci il nəşri əsasında. - Bakı : Qanun, 2016. - 13 s.




Çöl quşları : kiçik yaşlı məktəblilər üçün. - Təkrarnəşr, 1977-ci il nəşri əsasında. - Bakı : Renessans, 2019. - 8 s.




Təranənin oyuncaqları : şeirlər. - Təkrarnəşr, 1959-cu il nəşri əsasında. - Bakı : Renessans-A, 2017. - 16 s.

## Əsərləri dövri mətbuatda

Cahana sığmayan şairin qərib məzarı // Ədəbiyyat qəzeti. - 2019. - 16 fevral. - № 6. - S. 4-5.

Xatirələr dəftərindən // Azərbaycan : jurnal. - 2024. - № 7/8. - S. 10-14.

Qardaşlar // Ədəbiyyat qəzeti. – 2002. – 17 may.

Məhəmməd Hadi : şeir // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 4. - 1965.

Mülahizələr // Ədəbiyyat və incəsənəti. – 1983. – 20 may.

Oğul : şeir // Ədəbiyyat qəzeti. - 2023. - 11 mart. - № 10. - S. 2.

Sənətkar dərsləri // Azərbaycan. – 1985. - № 8. – S. 155-158.

Şuşada şəkil ; Şuşa ; Saatım əqrəbim // Ədəbiyyat və incəsənət. – 1990. – 18 may. - № 18. – S. 1.

Şuşam mənim : şeir // 525-ci qəzet. - 2020. - 11 noyabr. - № 150. - S. 13.

## Rəsul Rzaya həsr olunmuş şeirlər

**Əliyev, Q**. Qala : xalq şairləri Rəsul Rza və Nigar Rəfibəylinin xatirəsinə // 525-ci qəzet. - 2023. - 23 fevral. - № 34. - S. 15.

**Kərim, Ə**. Şair : Rəsul Rzaya həsr olunur // Seçilmiş əsərləri. - Bakı : Lider, 2004. - S. 67-68.

**Rəvan, P**. Sözün Rəsul ucalığı : poema // Ədəbiyyat qəzeti. - 2022. - 11 iyun. - № 21. - S. 15.

**Şamil, O.** Ötən kədər // Ədəbiyyat və incəsənət. – 1990. – 18 may. - № 18. – S. 1.

**Ulutürk X. R.** Hava kimi, su kimi ; Rəsul Rza həsrəti // Seçilmiş əsərləri. 2 cilddə. C. 1. - Bakı : Şərq-Qərb, 2005. - S. 160-161; 226-227.

**Ulutürk X. R.** Rəsul Rza həsrəti // Ədəbiyyat. – 2005. – 20 may. – S. 2.

## Haqqında kitablarda




**Pənah, G**. Sənətkar və poeziya : monoqrafiya. - Bakı : Sabah, 2010. - 321 s.




**Xəyal, S**. Rəsul Rza və incəsənət // Mədəniyyəti, incəsənəti yaşadanlar. - Bakı : MBM, 2010. - S. 32-38.




**Xəyal, S.** Rəsul Rza poeziyası ədəbi tənqiddə // Yaddaşlarda yaşayacaq. – Bakı: MBM, 2011. – S. 7-10.




**Qurban, T**. Rəsul Rza şeirinə düzəliş // Ömür yolları. - Bakı : OL Nəşriyyatı, 2013. – S. 66-69.




**Yusifoğlu, R**. Rəsul Rzanın ədəbi-nəzəri görüşləri // Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri. - Bakı : Elm və təhsil, 2016. - S. 233-249.

## Haqqında dövri mətbuatda

**Abuzərli, N**. Rəsul Rzanın söz dünyası // Kaspi. - 2016. - 23 aprel. - № 69. - S. 21.

**Adil, S.** Üç dənizim var // Ədəbiyyat qəzeti. – 2001. – 26 oktyabr. - № 42. – S. 2.

**Akimova, E**. Rəsul Rzanın uşaq şeirlərində "...o dalğın çocuq" // Ədəbiyyat qəzeti. - 2024. - 1 iyun. - № 20. - S. 6-7.

**Akimova, E**. Unudulmaz : şair Rəsul Rzanın "Unutmayın" şeirinin təhlili : 1 şeir/2 rakurs // Ədəbiyyat qəzeti. - 2017. - 1 aprel. - № 11. - S. 3.

**Anar.** "Sizsiz"dən // Azərbaycan. – 1990. - №7. – S. 46-72.

**Allahverdiyev, V.** Rəsul Rza yaradıcılığında yeni fikir, forma və məzmun axtarışları // Xalq qəzeti. – 2010. – 18 aprel. – S. 7.

**Alxas, R.** İyirmi bir illik dostluq // Xalq qəzeti. – 1996. – 2 aprel. – S. 4.

**Aran, S**. Rəsul Rza şerində müasirlik, Rəsul Rza şeirinin müasirliyi // Ədəbiyyat qəzeti. - 2016. - 14 may. - № 18. - S. 11.

**Aran, S**. Rəsul Rza üslubu : düşüncələrimin şairi haqqında düşündüklərim // Ədəbiyyat qəzeti. - 2015. - 16 may. - № 30/31. - S. 14-15.

**Azəroğlu.** Rəsul Rza Təbrizdə // Ədəbiyyat qəzeti. – 2000. – 4 avqust. - № 31. – S. 1.

**Babayev, A.** Şairin ömür payı // Ədəbiyyat qəzeti. – 2001. – 15 iyun. – № 23. - S. 2.

**Babayev, N.** Qayğılı misralar **//** Azərbaycan. – 1979. - № 2. – S. 199-203.

**Balayev, Ç.** Yadda qalan müəllim obrazları // Azərbaycan müəllimi. – 1991. – 16 oktyabr.

**Behbud, G**. Rəsul Rza poemalarının bədii xüsusiyyətləri // Kaspi. - 2016. - 28 may. - № 93. - S. 16.

**Bəndəroğlu, Ə**., Paşayev Q. Xalq şairi Rəsul Rza // Ədəbiyyat qəzeti. – 2017. – 1 aprel. - № 11. – S. 2.

**Bərdəli, B**. Bir dərsin təəssüratları : Ədəbiyyat müəllimimiz Rəsul Rzanın həyat və yaradıcılığından elə maraqla danışardı ki... // Azərbaycan Müəllimi. - 2019. - 3 may. - **№ 16**. - S. 14.

Böyük ehtiramla // Ədəbiyyat qəzeti. – 2005. – 20 may. – S. 2.

**Böyükçöl, K.,** Xəlilova, Ş., Yusifova, İ. Rəsul Rza – 100 // Ədəbiyyat qəzeti. – 2010. – 11 iyun. – S. 5.

**Cəfərov, N**. Həyat, ölüm... Və həyat : şair Rəsul Rzanın "Unutmayın" şeirinin təhlili : 1 şeir/2 rakurs // Ədəbiyyat qəzeti. - 2017. - 1 aprel. - № 11. - S. 3.

**Cəfərov, N.** Vətəndaşlıq borcum idi // Ədəbiyyat və incəsənət. – 1988. – 22 yanvar.

**Cəfərov, Ş.** Ölməz şairin adına layiq // Azərbaycan gəncləri. – 1987. – 23 iyul. – S. 3.

**Cəmil, A.** Rəsul Rzanın Qarabağı // Ədəbiyyat qəzeti. - 2016. - 2 aprel. - № 12. - S. 14.

**Elçin.** Şair –vətəndaş // Azərbaycan. – 1969. - №3. – S. 196-198.

**Əbilov, İ.** Kövrək xatirə…Sərt damğa // Azərbaycan müəllimi. – 1990. – 23 may. – S. 3.

**Əhədov, E**. Armud ağacının kölgəsində : Xalq şairi Rəsul Rza ilə bağlı xatirələr // Ədəbiyyat qəzeti. - 2024. - 18 may. - № 18. - S. 2.

**Əhmədalılar, T**. Rəsul Rza - özü və sözü : özü "döz", sözü "köz" kəlmələrini ehtiva edən şair // Mədəniyyət. - 2013. - 3 aprel. - № 23. - S. 13.

**Əhmədoğlu, A.** Böyük şairə, ədəbiyyatımıza məhəbbətlə // Ədəbiyyat qəzeti. – 2000. – 19 may. - № 20. – S. 1.

**Əlişanoğlu, T.** Dünyaya açılan kitab // Ədəbiyyat qəzeti. – 2000. – 15 sentyabr. - №37. – S. 1-2.

**Ələddinqızı, N**. Poetik fikir salnaməsində yeni səhifələr yazan şair // Səs. - 2025. - 20 may. - № 86. - S. 7.

**Ələsgərov, B**. Bilal Alarlı və onun Rəsul Rza haqqında araşdırması // 525-ci qəzet. - 2020. - 19 fevral. - № 19. - S. 18.

**Əlibəyli, S**. Poeziyamızın yaşıl işığı // Xalq qəzeti. - 2025. - 17 may. - № 101. - S. 14.

**Əlibəyova, G.** Bizimlə olsaydı // Ədəbiyyat və incəsənət. – 1990. – 2 noyabr. - № 43. – S. 3.

**Əlibəyova, G.** Rəsul Rzanı yenidən oxuyarkən // Ədəbiyyat və incəsənət. – 1990. – 28 dekabr.

**Əlili, İ**. Rəsul Rza poeziyası // Kaspi. - 2016. - 3 dekabr. - № 199. - S. 23.

**Əliyeva-Kəngərli, G**. Qapalı dodaqların söz yanğısı : Rəsul Rza haqqında // Ədəbiyyat qəzeti. - 2011. - 28 yanvar. - № 3. - S. 2.

**Əsədullayeva, Z.** İki nəğmə // Ulduz. – 1988. - № 9. – S. 73-75.

**Əziz, V**. Poeziyamızın Rəsulu // Ədəbiyyat qəzeti. - 2018. - 19 may. - № 19. - S. 4-5.

**Feyziyev, C**. Köhnə dünyanı yeni təfəkkürlə qavrayan böyük şair : Rəsul Rza haqqında // Ədəbiyyat qəzeti. - 2020. - 28 noyabr. - № 52. - S. 10-11.

**Hacı, K**. "75-95 üçnən" Bir telefon nömrəsinin itməyən yaddaşı : Xalq şairi Rəsul Rzanın "75-95 üçnən" poeması haqqında // Ədəbiyyat qəzeti. - 2018. - 3 fevral. - № 4. - S. 4.

**Hacı, K**. Güllər açılsın, güllələr açılmasın // Ədəbiyyat qəzeti. - 2025. - 17 yanvar. - **№ 2**. - S. 10-11.

**Hacı, K**. Zamanla həmahəng... // Kaspi. - 2020. - 15-17 fevral. - № 28. - S. 16.

**Hacı, K**. Rəsul Rzanın "Vəfa"sı // Ədəbiyyat qəzeti. - 2025. - 16 may. - № 17. - S. 2.

**Hacıyev, T.** Rəsul Rza dilinin öyrənilməsi // Ədəbiyyat qəzeti. – 2003. – 4 aprel. – S. 2.

**Hacızadə, N.** Mən kökümlə bu torpağa bağlıyam // Ədəbiyyat qəzeti. – 2005. – 13 may. – S. 2, 5.

**Həbibbəyli, İ**. Milli sərbəst şeirin uvertürası : Rəsul Rza - 110 // Azərbaycan : qəzet. - 2020. - 19 may. - № 97. - S. 6.

**Həbibbəyli, İ**. Rəsul Rzanın sənət qüdrəti // 525-ci qəzet. - 2018. - 26 may. - № 95. - S. 10-11.

**Həbibbəyli, İ**. Rəsul Rzanın sənət qüdrəti // Ədəbiyyat qəzeti. - 2017. - 20 may. - № 18. - S. 22-23.

**Həsənəliyev, N.** Çinar ömürlü şair // Ulduz. – 1983. - № 12. – S. 35-37.

**Həsənəliyev, N.** Ürəyi ipək – dili qılınc Rəsul Rza // Azərbaycan. – 1998. – 11 oktyabr.

**Həsənbəy, Y**. Nəfsimin əsarətində : xatirə-hekayə // 525-ci qəzet. - 2022. - 18 fevral. - № 31. - S. 14-15.

**Hüseynoğlu, S.** Dost ellərdən gələn səslər // Ədəbiyyat qəzeti. – 2007. – 30 noyabr. – S. 2.

**Hüseynov, A.** Bir Rəsulumuz vardı // Ədəbiyyat və incəsənət. – 1990. – 18 may. - № 18. – S. 1, 3.

**Hüseynov, R.** İkilikdə söhbətdən əvvəl və sonra // 525-ci qəzet. - 2023. - 19 aprel. - № 67. - S. 10-11.

Xalq şairinin xatirəsinə ehtiramla // Ədəbiyyat qəzeti. – 2000. – 31 mart. - № 13. – S. 2.

**Xəlilzadə, F.** Dünyadan kimlər keçdi // Azərbaycan. – 2000. – 14 may.

**Xəlilzadə, F**. Sabahımızın poeziyası : Rəsul Rza - 100 // Azərbaycan. - 2010. - 19 may. - N 107. - S. 7.

**Xəlilzadə, F.** Axşamdan batan günəş… Dan yeri ağarırdı // Azərbaycan. – 2001. – 22 dekabr. – S. 5.

**Xəlilzadə, F.** Çinar ömrün əzəməti // Azərbaycan. – 2005. – 19 may. – S. 7.

**Kamal, R**. İki şair yuxu görürdü : Anar - 80 // Ədəbiyyat qəzeti. - 2018. - 10 mart. - № 9. - S. 30.

**Kamaloğlu, R.** R.Rza lirikasında başlıqların poetikası // Azərbaycan müəllimi. – 1990. – 26 sentyabr.

**Kələntərli, K.** Tanıdığım Rəsul Rza // Xalq qəzeti. – 2000. – 20 may.

**Qarayev, Y.**, Salmanov Ş. Poeziyada yaşayan həyat // Kommunist. – 1980. – 20 may. – S. 3.

**Qasımbəyli, Y**. Poeziya və azadlıq // Kaspi. - 2019. - 27-29 aprel. - № 76. - S. 20.

**Qasımbəyli, Y**. Rəsul Rza və altmışıncılar: ustadlıq missiyası // 525-ci qəzet. - 2023. - 5 may. - № 77. - S. 14.

**Qasımbəyli, Y**. Rəsul Rza və Bəxtiyar Vahabzadə : Rəsul Rza - 110 / // Kaspi. - 2020. - 10 iyun. - № 87. - S. 10.

**Qasımbəyli, Y**. Rəsul Rza və Maqsud Şeyxzadə poeziyada qoşa zirvə kimi, yaxud məşhur poetik bioqrafiyalar müqayisəli təhlil müstəvisində // 525-ci qəzet. - 2019. - 27 aprel. - № 68. - S. 18.

**Qasımbəyli, Y**. Şairin həqiqəti - insanlığın həqiqəti bizim nailiyyətimizdir : Rəsul Rza - 110 // Azərbaycan : qəzet. - 2020. - 11 iyun. - № 110. - S. 7.

**Qasımbəyli, Y**. Rəsul Rza və Əli Kərim: "Rəsul Rza və altmışıncılar" silsiləsindən // 525-ci qəzet. - 2025. - 16 may. - № 84. - S. 11.

**Qasımzadə, Q.** Həmişə ön sıralarda // Ədəbiyyat və incəsənət. – 1985. – 31 may.

**Qəşəmoğlu, Ə**. Rəsul Rza : poemadan parçalar // Ədəbiyyat qəzeti. - 2016. - 16 iyul. - № 26. - S. 10-11.

**Qiyas, Ə**. Fidan Rzayeva: Onlar bir-birləri üçün doğulmuşlar : ["Varislər" rubrikasında Rəsul Rzanın qızı ilə söhbət] // Ədəbiyyat qəzeti. - 2020. - 12 sentyabr. - № 38/39. - S. 10-12.

**Qoca, F.** Bir ömür də yaşayaydım bundan belə // Ədəbiyyat qəzeti. – 2000. – 5 may. – S. 1.

**Qoca, F**. İndi də elə bil Rəsul Rza ilə danışıram, söhbət edirəm : Rəsul Rza Fondunun sədri, xalq şairi Fikrət Qoca ilə müsahibə / yazdı: E.Umudlu // Azərbaycan Müəllimi. - 2012. - 27 aprel. - № 16. - S. 5.

**Qoca, F.** Şair ömrü // Azərbaycan gəncləri. – 1968. – 28 dekabr.

**Quliyev, Ə.** Xeyirxahım Rəsul Rza // Azərbaycan. – 2000. – 19 dekabr.

**Quliyev, Ə.** Yadigar saat: "Deyilən söz yadigardır" silsiləsindən // Azərbaycan. – 2001. – 28 yanvar. – S. 4.

**Quliyev, Q**. Təbrizin yolları oyum-oyumdur : R. Rzanın bir şeiri haqqında etüd // Ulduz. - 2005. - № 9. - S. 69-71.

**Qurbanqızı, Z**. Poeziyamızın qoşa qanadı : Rəsul Rza və Nigar Rəfibəyli cütlüyünün həyat hekayəsindən // Respublika. - 2023. - 19 may. - № 104. - S. 10.

**Mehdi, N**. Rəsul Rzanın "Rənglər"i və lallıqdan qurtulmaq problemi // Ədəbiyyat qəzeti. - 2019. - 6 aprel. - № 11. - S. 3.

Məktublar // Azərbaycan. – 1985. - № 8. – S. 158-161.

**Məmmədli, N**. Rəsul Rzanın dil haqqında "Mülahizələr"i : Müəllifin "Mülahizələr" və "Azərbaycan dilinin bugünkü vəziyyəti və gələcək vəzifələri" haqqında məqqalələri əsasında // Ədəbiyyat qəzeti. - 2019. - 24 avqust. - № 29. - S. 10-11.

**Məmmədov, A.** El şair deyib ötdü // Ədəbiyyat və incəsənət. – 1983. – 16 dekabr. - № 50.

**Məmmədov, E.** Novator şair // Kitablar aləmində. – 1990. - № 2. – S. 1-5.

**Məmmədov, İ.** Şair ölmür, qara qələm kimi yazılır, qurtarır // Azərbaycan müəllimi. – 1990. – 23 may. – S. 3.

**Məmmədov, Ş.** İnsan - əbədi və əzəli torpaq : R.Rzanın "Mən torpağam" şeirinin tədrisi ilə bağlı qeydlər // Azərbaycan müəllimi. - 2009. - 27 fevral. - S. 6.

**Mirməmməd, G.** Şair üçün ən çətin şey şeir yazmaqdır // Panorama. – 1996. – 18 may.

**Musayeva, İ.** Altmışıncıların lideri // Azərbaycan müəllimi. – 2001. – 11-17 yanvar. – S. 7.

Müasirləri Rəsul Rza haqqında // Ədəbiyyat qəzeti. – 2021. – 3 aprel. – S. 2-5.

**Mürvətqızı, S**. Duyğu yaddaşından poetik meditasiyaya // 525-ci qəzet. - 2025. - 17 may. - № 85. - S. 21.

**Mütəllibov, T.** Bugünün, sabahın sənətkarı // Azərbaycan gəncləri. – 1980. – 17 may. – S. 3.

**Nargis.** Durnanın qatarı nə qəşəngdir : Rəsul Rzanın Krım cəbhəsində yazdığı şeirlər barəsində // Ədəbiyyat qəzeti. - 2020. - 9 may. - № 13. - S. 19.

**Nasir, Ş**. Od nə çəkdi... // 525-ci qəzet. - 2024. - 15 iyun. - № 106. - S. 20.

Nazim Hikmətin İtaliya qəzetinə verdiyi müsahibədən // Ədəbiyyat və incəsənət. – 1990. – 18 may. - № 18. – S. 1.

**Nəbiyev, B.** Anlamaq dərdi və kövrək duyğular poeziyası // Ədəbiyyat qəzeti. – 1991. – 5 aprel. - № 14. – S. 6.

**Nəbiyev, B**. Şeirimizin klassiki və müasiri : Rəsul Rza - 100 // Ədəbiyyat qəzeti. - 2010. - 14 may. - N 19. - S. 1,4. ; 21 may. - N 20. - S.4.

**Nəcəfxanlı, Ə**. Rəsul Rzanın Ankarada çap olunmuş kitabı təqdim olundu // Xalq qəzeti. - 2023. - 1 noyabr. - № 239. - S. 10.

**Paşayev, Q**. Taleyimdə müstəsna rol oynayan iki şəxsiyyətdən biri : Rəsul Rzanın doğum gününə // Ədəbiyyat qəzeti. - 2017. - 13 may. - № 17. - S. 11.

**Paşayev, Q**. Tərifdən yuxarıda duran şair : Azərbaycan Yazıçılar Birliyi - 75 : Rəsul Rza haqqında // Azərbaycan. - 2009. - 20 fevral = vətən. - S. 10.

Rəsul Rza sənəti ədəbiyyatımızda yeniliyə açılan nəfəsdir : Ədəbiyyatşünas Cavanşir Yusifli ilə yazıçı Şərif Ağayarın xalq şairi Rəsul Rzanın yaradıcılığı haqqında söhbəti // 525-ci qəzet. - 2020. - 20 may. - № 45. - S. 16-17.

Rəsul Rza və dünya ədəbiyyatı // Ədəbiyyat qəzeti. – 2000. – 19 may. - № 20. – S. 1.

Rəsul Rzanın anadan olmasının 80 illiyi haqqında // Bakı. – 1990. – 5 iyun.

Rəsul Rzanın anım günü // Ədəbiyyat qəzeti. – 2006. – 7 aprel. – S. 2.

Rəsul Rzanın 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (29 aprel 2000-ci il) // Ədəbiyyat qəzeti. – 2000. – 5 may. – S. 1.

Rəsul Rzanın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //Azərbaycan. - 2010.- 15 yanvar. - S. 1.

Rəsul Rzanın ev-muzeyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (23 iyun 2022-ci il) // Ədəbiyyat qəzeti. - 2022. - 25 iyun. - № 23. - S. 2.

**Rəşid, M**. Sabahımıza Rəsul Rza baxışı // 525-ci qəzet. - 2020. - 20 may. - № 45. - S. 17.

**Rüstəmli, R**. Poeziyamızda öz dəst-xətti, müasirlik ruhu ilə seçilən // Respublika. - 2024. - 19 may. - № 104. - S. 11.

**Rzayev, T.** Babamı düşünəndə // Ədəbiyyat və incəsənət. – 1990. – 18 may. - № 18. – S. 1.

**Salmanov, Ş.** Sərhədlər aşan poeziya // Sovet kəndi. – 1980. – 20 may.

**Sadiq, B.** Rəsul Rzanın yaradıcılığı müasirlik kontekstində // Ədəbiyyat qəzeti. – 2012. – 19 may. – S. 2, 4.

**Sərvaz.** Çinar ömrünün ucalığı : Rəsul Rza - 100 // Ədəbiyyat qəzeti. - 2010. - 7 may. - N 18. - S. 4.

**Selvinski, İ.** Rəsul Rzanın lirikası // Azərbaycan. – 1985. - № 8. – S. 153-155.

**Seyidov, Ə**. Mən ürəyəm, döyünməsəm - ölərəm : Azərbaycan şairi Rəsul Rza haqqında // Xalq qəzeti. - 2010. - 25 aprel. - № 88. - S. 7.

**Seyidov, Ə**. Xatirələr işığında : Xalq şairi Rəsul Rza haqqında // Xalq qəzeti. - 2011. - 17 may. - № 105. - S. 6.

**Səmədli, Ə.** Rəsul Rza: Pəncərəmi açdım sabaha // Ədəbiyyat qəzeti. – 2003. – 17 yanvar.

**Sultanova, A.** Dünyanın yalan günü dünyamızı tərk edən insan // Xalq qəzeti. – 2000. – 1 aprel. – S. 5.

Şair vətəndaş // Kommunist. – 1980. – 20 may. – S. 3.

**Turan, A**. Modernist estetikaların iqlim qurşağı - "Rənglər" // Ədəbiyyat qəzeti. - 2017. - 11 noyabr. - № 40. - S. 9.

**Ulusel, R.** Mənəvi təkamül poeziyası // Bakı. – 1991. – 27 avqust.

**Ulutürk, X.R.** Rəsul Rzanın doğum günü **//** Ədəbiyyat. – 2005. – 20 may. – S. 2.

**Vəfalı, A**. Eləyə bilmədiyim təşəkkür... : Rəsul Rza - 100 ı // Ədəbiyyat qəzeti. - 2010. - 29 yanvar. - N 4. - S. 5.

**Yeganə.** Əsrə sığmayan şair ömrü : Xalq şairi Rəsul Rzanın 100 illik yubileyinə həsr edilmiş poeziya gecəsi // Mədəniyyət. - 2010. - 21 may.

**Yusif, Ə**. Ürəklərdə izi qaldı // Ədəbiyyat qəzeti. - 2024. - 15 noyabr. - № 44. - S. 25.

**Yusifli, C**. Mətnlərarası virtual əlaqələr : Səməd Vurğunun "Dünya" şeiri : Çeslav Miloşun "Poeziya sənəti" şeiri : Rəsul Rzanın "semantik yuvalar" şeiri // Ədəbiyyat qəzeti. - 2017. - 16 sentyabr. - № 32. - S. 14-15.

**Yusifli, C**. Rəsul Rzanın şeiri: anlamaq dərdi... : bir şeirin dedikləri : "Kefli İskəndər" şeiri haqqında // Ədəbiyyat qəzeti. - 2014. - 4 iyul. - № 25. - S. 13.

**Yusifli, C**. Səsin rəsmini çəkmək şeirə toxunmaq imkanı : Rəsul Rza poeziyası haqqında // Ədəbiyyat qəzeti. - 2019. - 14 dekabr. - № 47/48/49. - S. 20-21.

**Yusifli, C**. Üçüncü göz, yaxud ulduzlar dənizə tökülür : Rəsul Rza - 110 // Ədəbiyyat qəzeti. - 2020. - 16 may. - № 14. - S. 2-3.

**Yusifli, C**. Üçüncü göz, yaxud ulduzlar dənizə tökülür... : Bu gün xalq şairi Rəsul Rzanın anım günüdür // Ədəbiyyat qəzeti. - 2023. - 1 aprel. - № 12. - S. 12.

**Yusifli, V.** Poeziyanın tədqiqi // Ədəbiyyat və incəsənət. – 1988. – 24 iyun.

**Yusifli, V.** Bir daha "Rənglər" silsiləsi haqqında : Rəsul Rza - 100 // Ədəbiyyat qəzeti. - 2010. - 16 aprel. - № 15. - S. 1, 3.

**Yusifli, V**. Mən kökümlə bu torpağa bağlıyam : Rəsul Rza - 105 // Azərbaycan : qəzet. - 2015. - 20 may. - № 106. - S. 10.

**Yusifli, V**. Rəsul Rza sevgisi // Ədəbiyyat qəzeti. - 2019. - 18 may. - № 17. - S. 8-9.

**Yusifli, V**. Rəsul Rza: dünənin, bu günün, gələcəyin şairi // Mədəniyyət. - 2010. - 12 may. - N 30. - S. 13.

**Yusifli, V**. Rəsul Rzanın poetik yolu və yoldaşları : "Rəsul Rza və ədəbi çağdaşları" monoqrafiyası fonunda düşüncələr // Kaspi. - 2018. - 8 dekabr. - № 211. - S. 20.

**Zamanov, A**. Hər ulduzun yeri var // Azərbaycan müəllimi. – 1990. – 23 may. – S. 3.